# Osmanlı təhrir dəftərlərinin Azərbaycanın orta əsrlər sosial-iqtisadi tarixinin öyrənilməsində önəmi[1]

**Şahin Mustafayev**
*AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik*

Müasir Azərbaycan mediyevistikasının qarşısında duran ən önəmli vəzifələrdən biri tariximizə dair yeni mənbələrin üzə çıxarılıb tədqiq edilməsidir. Bu məsələ akademik R.Mehdiyevin "Şah İsmayıl Səfəvi: hökmdar və sərkərdənin portreti" əsərində xüsusi vurğulanır və qeyd edilir ki, "Klassik tarixi mənbələr üzə çıxarılıb ana dilimizə tərcümə edilməmiş bizim tarix elmi irəli addımlaya bilməyəcək".

Bu baxımdan ümumi bir müddəayla başlayaraq qeyd etmək istərdik ki, orta əsrlərdə Azərbaycan tarixinin öyrənilməsində mühüm olan müsəlman mənşəli mənbələr dil baxımından, əsasən, üç qrupa ayrılır – ərəb, fars və türk dillərində olan tarixi qaynaqlar. Ərəbdilli mənbələr, əsasən, erkən xilafət və Səlcuq dövrlərini, yəni VII-XII əsrləri əhatə edir, farsdilli mənbələr başlıca olaraq Monqol dövründən, yəni XIII əsrdən sonrakı dövr üçün çoxluq təşkil edir, və türkdilli tarixi mənbələr də XV yüzillikdən etibarən başlayır. Sonuncu qrupun da ən böyük hissəsini Osmanlı mənşəli mənbələr təşkil edir. Beləliklə, Osmanlı mənbələrinin həm sayı, həm də əhəmiyyətinə görə bizim tarixşünaslıqda xüsusi çəkisi var.

Ənənəvi olaraq AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda ərəb, fars və Osmanlı dillərində olan mənbələrin üzə çıxarılması, tədqiqi, tərcüməsi və nəşri işinə həmişə xüsusi diqqət yetirilib. Bu sahədə institutun direktorları olmuş böyük tarixçi-alimlər akademik Əbdülkərim Əlizadə və akademik Ziya Bünyadov vaxtı ilə çox güclü mənbəşünaslıq məktəbi yaratmışdılar.

Azərbaycanda sistemli şəkildə Osmanlı tarixi qaynaqlarının araşdırmaları da məhz akademik Ziya Bünyadovun adı ilə bağlıdır. Bu sahədə tədqiqatlar, əsasən, 1980-ci illərin əvvəllərindən başlanmışdır. Hərçənd, bu dövrdən əvvəl də ayrı-ayrı əsərlər işıq üzü görmüşdür. Ancaq Ziya müəllim Osmanlı mənbələrinin Azərbaycan tarixi üçün önəmini dərindən dərk edən, onların sistematik tədqiqini Şərqşünaslıq İnstitutunda təşkil edən ilk alim idi.

Ümumiyyətlə, Azərbaycan tarixinə dair onlarla müxtəlif növ Osmanlı arxiv mənbələri mövcuddur – *mühimmə dəftərləri, əhkam dəftərləri, münşəatlar, ruznəmçələr* və s. Təbii ki, bunların hamısı haqqında bir məqalə çərçivəsində söz demək imkan xaricindədir. Sadəcə bunu vurğulamaq istərdik ki, Osmanlı arxivlərində Azərbaycan tarixinin ayrı-ayrı dövrləri ilə bağlı minlərlə arxiv sənədi saxlanmaqdadır. Burada diqqət daha çox Osmanlı vergi-maliyyə reyestrlərinə, və ya *təhrir dəftərlərinə* yönəldiləcək.

Bu mənbələrin mahiyyəti və əhəmiyyəti nədən ibarətdir?

Adətən, Azərbaycan dilində "dəftər" sözünü işlədəndə ilk ağla gələn məktəbli dəftəri olur. Halbuki, Osmanlı təhrir dəftərlərindən söz edildikdə tamamilə başqa növ yazılı mənbələr nəzərdə tutulur. Bu mənbələr son orta əsrlərdə, yəni XV-XVIII yüzilliklərdə Osmanlı imperiyasında iqtisadi həyatı, xüsusilə maliyyə-vergi praktikasını tənzimləyən dövlət sənədləri funksiyasını yerinə yetirirdi. Xatırlatmaq gərəkdir ki, orta əsrlərdə bir çox müsəlman dövlətlərinin əsas mərkəzi vergi-maliyyə orqanı *Dəftərxana* adlanırdı. Məsələn, Osmanlı imperiyasında bu quruma *Dəftərxanə-i Amirə* deyilirdi ki, bu söz dövlət reyestrlərinin hazırlandığı və saxlandığı qurum və ya nazirlik anlamına gəlir. Onun başında duran *Baş dəftərdar* da dövlətin ən yüksək vəzifəli məmurlarından biri sayılırdı.

Məsələ burasındadır ki, orta əsrlərdə Şərq cəmiyyətləri, o cümlədən Osmanlı cəmiyyəti ilə Qərbi



***Dəftərxanə-i Amirə***
***(Osmanlı İmperiyasının Maliyyə və Vergilər Nazirliyi)***

[1] Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant № EİF-KETPL-2-2015-1(25)-56/45/5

Avropa cəmiyyətləri arasında mühüm tipoloji fərq mövcud idi. Bu da ondan ibarət idi ki, Avropanın feodal cəmiyyətlərindən fərqli olaraq, Osmanlı imperiyasında torpaq fondunun əksər hissəsi həmişə dövlətin əlində olmuşdur. Yəni başlıca istehsal vasitəsi olan torpaq üzərində xüsusi mülkiyyət deyil, dövlət mülkiyyəti öz çəkisi baxımından əsas sayılırdı. Təbii ki, vergi toplama hüququ da dövlətə məxsus idi. Buna görə Balkanlardan Anadoluya, oradan da ərəb ölkələrinə qədər uzanan Osmanlı imperiyasında bu genişlikdə ərazi üzərində son dərəcə ciddi qeydiyyat və nəzarət işləri aparmaq gərək idi ki, bütün torpaqlar, sənətkarlıq və ticarət obyektləri, bütün gəlir mənbələri nəzarətdən kənarda qalmasın və xəzinə dolsun. Və bütün bu işləri müasir nəqliyyat vasitələri, və informasiya texnologiyaları olmadığı bir dövrdə həyata keçirmək lazım idi.

Bütün bu böyük və məsuliyyətli vəzifələr də məhz Dövlət dəftərxanasının və orada fəaliyyət göstərən maliyyə-vergi məmurların öhdəsinə düşürdü. Çıxış yolu da, qeyd edildiyi kimi, bu məmurlar tərəfindən çoxsaylı və müxtəlif növlü reyestrlərin, və ya o dövrün istilahıyla deyildikdə *təhrir dəftərlərin* hazırlanmasında idi. Bu gün yalnız İstanbul Osmanlı arxivində təqribən 300 minə qədər müxtəlif növ dəftərlər saxlanmaqdadır. Ancaq burada yalnız 2 növ – *müfəssəl* və *icmal dəftərləri* adlanan sənədlərə diqqəti çəkmək və onlardan bəzi misallar vermək istərdik. Çünki Azərbaycan tarixi baxımından bizi ən çox maraqlandıran məhz bu növ mənbələrdir.

Bu dəftərlərin tərtibi praktikası təqribən belə idi:

Adətən Osmanlı imperiyasında hər 25-30 ildə bir dəfə ümumi siyahıyaalma işləri aparılırdı ki, buna *təhrir* deyirdilər. Bu vaxt dövlətin vergi-maliyyə məmurları tərəfindən bütün inzibati vahidlərdə – əyalət, sancaq (liva) və nahiyələrdə (qəzalarda) – torpağın və bütün gəlir gətirən obyektlərin (yəni, dükanların, dəyirmanların, bazarların, müxtəlif emalatxanaların və s.) qeydiyyatı aparılır və bunların nəticəsi *təhrir dəftərlərində* öz əksini tapırdı. Bu sənədlərdə müvafiq inzibati vahid ərazisində nə qədər yaşayış məskəni – şəhər, qəsəbə, kənd, oba və s. olduğu, bunlarda nə qədər vergi ödəyən əhali yaşadığı, onların bir-bir adları, sosial statusu, nə qədər və hansı vergi ödədikləri müfəssəl şəkildə qeyd edilirdi.

Bütün bu səbəblərdən, bu gün dünya türkologiyasında və tarix elmində, xüsusilə vaxtı ilə əraziləri Osmanlı imperiyasının tərkibinə daxil olmuş ölkələrdə – Macarıstan, Bolqarıstan, Yunanıstan, keçmiş Yuqoslaviya, Kipr, Gürcüstan, Misir, İraq və Türkiyənin özündə Osmanlı arxiv sənədlərinə, o cümlədən Osmanlı dəftərlərinə son dərəcə böyük diqqət və maraq var. Bu mənbələr Avropada, Amerikada, ərəb ölkələrində geniş öyrənilir, tərcümə və nəşr olunur, onların əsasında fundamental əsərlər yazılır. Hətta bu istiqaməti qeyri-rəsmi olaraq Qərb osmanistikasında bəzən *dəftəroloji* və ya *dəftərologiya* da adlandırırlar və bu termin hətta bir sıra elmi əsərlərdə işlənilir.

Hal-hazırda Türkiyə arxivlərində, xüsusilə İstanbuldakı Başbakanlık Arxivində Azərbaycanın tarixi torpaqlarına dair bu növ sənədlər də mövcuddur. Bilindiyi kimi Azərbaycan iki dəfə nisbətən uzun müddətə Osmanlı imperiyası tərəfindən fəth edilmiş və əraziləri imperiyaya daxil edilmişdir – birinci dəfə XVI əsrin sonu – XVII əsrin əvvəllərində, ikinci dəfə isə XVIII əsrin 20-30-cu illərində. Hər iki dövrdə də Osmanlı idarə sistemi tərəfindən Azərbaycanın müxtəlif bölgələrinə – Təbriz, Gəncə-Qarabağ, Marağa, Urmiya, Xalxal, Ərdəbil, İrəvan, Naxçıvan, Həmədan, Maku, Xoy, Tiflis (Borçalı və Qazax), Lori və digərlərinə aid bir neçə təhrir dəftərləri tərtib edilmişdi.

Azərbaycan ərazisinə aid olan Osmanlı maliyyə-vergi dəftərlərinin tariximizin tədqiqi üçün əhəmiyyətini hələ ötən əsrin 60-cı illərində Bernard Lyuis və Vladimir Minorski kimi məşhur Qərb şərqşünasları xüsusi vurğulamışdılar. Qeyd edildiyi kimi, akademik Ziya Bünyadovun təşəbbüsü ilə 1980-ci illərdən etibarən AMEA Şərqşünaslıq İnstitutunda sözün tam mənası ilə Azərbaycan osmanistikasının təməli qoyuldu və bu istiqamət müstəqil elmi sahə kimi inkişaf etməyə başladı.

Tezliklə Azərbaycanın tarixi torpaqlarına aid bir sıra dəftərlər akad. Z.Bünyadov, H.Məmmədov, bu sətirlərin müəllifi, E.Arıklı kimi tədqiqatçıların fəaliyyəti sayəsində tərcümə və nəşr etdirildi. Bu sahədə Şərqşünaslıq İnstitutunda bu gün də iş davam edir, bir sıra dissertasiya mövzuları tədqiq olunur. Yeni Osmanlı dəftərlərinin elmi dövriyyəyə daxil edilməsi məqsədi ilə hal-hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə layihə həyata keçirilir və bu layihə çərçivəsində Azərbaycanın tarixi torpaqları olan Təbriz, Marağa və Urmiyaya aid dəftərlərin üzərində iş aparılır, onların tezliklə hazırlanıb nəşr edilməsi nəzərdə tutulur.

Təhrir dəftərlərinin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, bunlar maliyyə sənədi olduğu üçün məxfi xarakter daşıyırdı. Məsələn, İstanbulun fatehi sultan II Məhmədin Qanunnaməsində qeyd edilirdi ki, Dövlət Xəzinədarlığı və Dəftərdarlığına giriş ancaq Baş vəzirin möhürü ilə və Baş dəftərdarın özünün hüzurunda ola bilərdi. Və təbii ki, bu maliyyə-vergi dəftərləri orta əsrlərdə bütün digər sənədlər kimi əlyazma şəklində ərəb qrafikası ilə qələmə alınırdı. Ancaq bunların mətninə kənar şəxslərin müdaxilə və bunlarda dəyişiklik edə bilməməsi məqsədi ilə ərəb əlifbasının xüsusi xətti icad edil-

mişdi. *Siyaqət* adlanan bu xətt növü müəyyən mənada şifrəli xarakter daşıyır, digər xətt növlərindən öz yazılış özəlliklərinə görə xeyli fərqlənir və xüsusi olaraq maliyyə-vergi məmurlarına öyrədilirdi. Beləliklə, bu xəttlə qələmə alınmış sənədlərin müəyyən təhlükəsizliyi təmin olunurdu.

Təhrir dəftərlərinin elmi dövriyyəyə daxil edilməsinin bizim tarixşünaslığa hansı yenilik gətirdiyini qısa şəkildə açıqlamaq məqsədi ilə yalnız bir örnəyə müraciət edib, 1590-cı il Rəvan vilayətinin müfəssəl dəftərində Naxçıvan qəzasına aid məlumat üzərində dayanmaq istərdik. Bu məlumat 2016-cı ildə Moskvada "Transcaucasica" elmi jurnalında nəşr olunmuş "XVI əsrin sonunda Naxçıvan (1590-cı il Rəvan vilayətinin Osmanlı müfəssəl dəftəri əsasında)" (Нахичеван в конце XVI в. (на основе османского "Пространного реестра вилайета Реван" от 1590 г.)) adlı məqaləmizdə öz əksini tapıb.

Yuxarıda qeyd olunduğu kimi, XVI yüzilliyin sonlarında Osmanlı-Səfəvi müharibələri dövründə Azərbaycan ərazilərinin böyük hissəsi Osmanlı imperiyasına daxil edilmiş və o cümlədən Naxçıvan torpaqları da Rəvan (İrəvan) vilayətinin tərkibində yer almışdır. Burada bir inzibati vahid kimi Naxçıvan qəzası mövcud olmuşdur. 1590-cı ildə Osmanlıların tərtib etdiyi Rəvan vilayətinin müfəssəl dəftərinin məlumatlarına əsasən belə nəticəyə gəlmək olar ki, bu dövrdə Naxçıvan şəhərində təqribən 4631 nəfər adam yaşamış, onlardan 3643 nəfəri müsəlman, 988 nəfəri qeyri-müsəlman olmuşdur. Beləliklə, hələ XVI əsrin sonlarında Naxçıvan şəhərinin əhalisinin 80 faizi azərbaycanlılardan ibarət idi. Bu da Azərbaycanın tarixi demoqrafiyasını öyrənmək baxımından Osmanlı təhrir dəftərlərinin nə qədər önəmli mənbə olduğunu göstərir və eyni zamanda bu gün də Azərbaycanın qədim diyarı olan Naxçıvana bəzən müxtəlif səviyyələrdə erməni tarixçiləri tərəfindən səslənən iddialara tutarlı bir cavab verir.

Bununla yanaşı, mənbənin verdiyi məlumatdan məlum olur ki, Naxçıvan şəhərində bu dövrdə 12 məhəllə mövcud olmuş və onların Qazı Cahan, Seyid Hüseyn, Molla Əhmədi, Mirzəbəy, Hacıbəy, Türkmanlar və digərləri kimi adlarının əksəriyyəti türk-müsəlman mənşəli idi. Şəhərdə sənətkarlığın və ticarətin inkişaf səviyyəsindən xəbər verən mühüm məlumat da mövcuddur – məsələn, müxtəlif emalatxanaların, dükan və bazarların, onlardan alınan vergilərin adları çəkilir. Məlum olur ki, Naxçıvanda bu dövrdə şəhər əhalisi müxtəlif sənət və ticarət növləri ilə – ipək parçasının istehsalı və satışı, dəriçilik və başmaq istehsalı, xəttatlıq, halva istehsalı, bənnalıq və s. ilə məşğul olub. Beləliklə, orta əsrlərdə Azərbaycanın sosial-iqtisadi tarixinin, şəhər həyatının tədqiqi üçün təhrir dəftərləri bəzən unikal bilgilər ehtiva edən mənbə kimi dəyərləndirilə bilər.

Dəftərdə Naxçıvanın dini müəssisələri barədə də geniş məlumat verilir. Məlum olur ki, XVI yüzilliyin sonunda Naxçıvanda 14 məscid fəaliyyət göstərib, o cümlədən Camei-şərif, Məhəmməd Kətxuda, Sufi Xəlil, Sultan Mahmud məscidləri və digərləri. Onlardan ən çox diqqəti cəlb edən Qızıl Arslan məscididir. Burada söhbət Azərbaycan Atabəylər dövlətinin məşhur hökmdarı, Nizaminin müasiri Qızıl Arslanın (1186-1191) adı ilə bağlı məsciddən gedir. Təəssüflər olsun ki, bu məscidin binası bu gün yoxdur və onun haqqında yalnız bu Osmanlı mənbəyində xəbər verilir. Memarlıq tariximizin tanınmış mütəxəssisi C.Qiyasinin bildirdiyinə görə, Naxçıvanda Atabəylər memarlıq kompleksində bir məscidin qalıqları mövcuddur, lakin onun kim tərəfindən inşa edildiyi bugünə qədər tam məlum deyildi. Qeyd edilən təhrir dəftərindən əldə edilən məlumatdan sonra şübhə qalmır ki, o məscidin qalıqları Qızıl Arslan məscidinə aiddir.

Digər bir önəmli və maraqlı tapıntıya da diqqəti cəlb etmək istərdik. Naxçıvanda XII yüzillikdə Əcəmi Naxçıvani tərəfindən inşa edilən Şeyx Yusif ibn Qüseyir məqbərəsi bu gün də Azərbaycan memarlığının incisi sayılır. Lakin Şeyx Yusifin özü haqqında, demək olar ki, heç bir məlumat yoxdur. Sadəcə məqbərənin üzərindəki kitabədə qeyd edilib ki, Qüseyir oğlu Yusif böyük din xadimi və şeyxlərin rəisi idi. Ancaq bu dəftərdə Şeyx Yusifin dəfn edildiyi kəndin adı göstərilir – Şeyx Yusifli, və qeyd edilir ki, onun nəslindən olan adamlar, yəni "şeyxzadələr" (dəftərdə *şeyxzadəgan*) xalq arasında böyük hörmətə sahibdirlər. Onların vergidən azad edilmələri barədə əllərində hələ Ağqoyunlu və Səfəvi hökmdarları tərəfindən verilmiş sənədləri var (*selatin-i Bayındıriyye ve selatin-i Kızılbaşdan ellerinde mu'afnameleri var*). Ona görə də Osmanlı dövləti onlardan vergi almayacaq.



***Naxçıvanda Şeyx Yusif ibn Qüseyir məqbərəsi (1161-1162)***

Beləliklə, Osmanlı dəftərləri orta əsrlərdə Azərbaycanda din tarixini öyrənmək üçün də önəmli qaynaq rolunu oynayırlar.

Eyni zamanda bu dövrdə Naxçıvan qəzasında 35 kənd mövcud idi və beləliklə, biz kənd əhalisinin sayı və dini tərkibi, burada istehsal edilən kənd təsərrüfatı məhsullarının çeşidi, onlardan dövlət xəzinəsinə alınan vergilərin növ və miqdarı haqqında məlumat əldə edə bilirik. Çünki bu mənbədə bütün kəndlərdə yaşayan vergi ödəyicilərin bir-bir adları və nə qədər vergi ödədikləri qeyd olunub.



***Osmanlı dövründə əkinçi rəyyətlər***

Bundan savayı, bu dəftərlər küll halında hazırlanıb nəşr edildikdən sonra tarixin müəyyən dövründə Azərbaycanın bir tarixi vahid olaraq tam bir xəritəsini hazırlamaq mümkün olacaq. Bu da sözün əsl mənasında Azərbaycanın **milli tarixi atlası** rolunu oynayacaq – yəni bütün lazım olan sosial, iqtisadi, demoqrafik, kartoqrafik və toponimik məlumatları əhatə edəcək. Belə ki, XVIII əsrin 20-ci illərində Azərbaycanın siyasi-inzibati sərhədlərinin necə olduğu, Azərbaycanda bu vaxt nə qədər şəhər, qəsəbə və kənd olduğu, burada nə qədər əhali yaşadığı, əhalinin sosial, etnik və dini tərkibi, əhalinin hansı hissəsinin oturaq təsərrüfatla məşğul olduğu, hansı hissəsinin köçəri və yarım-köçəri həyat tərzini sürdüyü, nə qədər torpaqların kənd təsərrüfatı məqsədilə istifadə edildiyi, nə qədər vergi toplandığı və bu vergilərin bütün növləri, nə qədər sənətkarlıq istehsalı olduğu, ticarətin vəziyyəti və s. barədə məlumat əsasında yeni informativ tarix istiqamətini inkişaf etdirmək mümkün olacaq. Bütün bunlar həm də müasir dünya tarix elmində ən aktual istiqamət olan "insanların günlük həyatı", və ya Fernan Brodelin ifadəsi ilə desək "günlük həyatın strukturlarını" öyrənmək üçün son dərəcə önəmli məlumatlar verir. Eyni zamanda, bu dəftərlər bizə tarixi yer adlarını bərpa etməyə, antroponimika sahəsində tədqiqatlar aparmağa, beləliklə, dilçilik baxımından da önəmli bilik sahibi olmağa imkan verir.

Beləliklə, Osmanlı təhrir dəftərləri, əslində, yalnız tarixçilər üçün deyil, tarixi coğrafiya, iqtisadiyyatın tarixi, urbanizasiya, demoqrafiya, kartoqrafiya, toponimika, dilçilik və digər elmlərlə məşğul olan alimlər üçün önəmli informasiya əhatə edir və bu mənbələrin əsasında müxtəlif elm sahələrinin nümayəndələri ortaq fənlərarası tədqiqatlar da apara bilərlər.

Tədqiq edilən təhrir dəftərinin Azərbaycan tarixi ilə bağlı verdiyi məlumatları davam etdirmək olar. Ancaq yekunlaşdıraraq, qeyd etmək istərdik ki, gətirilən örnəklər sadəcə bir mənbənin kiçik bir hissəsini əhatə etsə də, bir güzgü kimi Osmanlı təhrir dəftərlərinin mahiyyətini əks etdirir və onların orta əsrlər tariximizin öyrənilməsi üçün nə dərəcədə önəmli mənbə qrupu olduğunu göstərir. Çünki bu qaynaqlar, ilk növbədə müəyyən tarixi dövrdə tam və dolğun statistik məlumat əsasında Azərbaycanın sosial-iqtisadi mənzərəsini yaratmağa imkan verir. Ümumiyyətlə, orta əsrlərdə tariximizə dair bunlardan daha dolğun və informativ qaynaqlar təsəvvür etmək mümkün deyil.

**Shahin Mustafayev**

**The Ottoman archival documents (*tahrir defters*) on the medieval history of Azerbaijan: significance and research prospects**

**Summary**

The article discusses the role and importance of the Ottoman financial and natural registers (*tahrir defters*) for the study of the medieval socio-economic history of Azerbaijan. This type of sources contains unique data on the number, religious composition, social structure of the tax-paying population of Azerbaijan, provides information on the development of handicraft production, trade, agricultural production, fiscal practice and taxation, nomadic tribes, etc. Ottoman financial and tax registers related to the territory of Azerbaijan were compiled mainly in the late 16th century and in the 20s of the 18th century. Introduction into scientific circulation and their thorough research can highlight many of the little-studied issues of the medieval history of the country.